**BAKI ŞƏHƏRİ YASAMAL RAYON MƏHKƏMƏSİNƏ**

**İddiaçı**: ______________(Soyadı, adı, atasının adı)_________________
**Ünvan**: (qeydiyyat ünvanı və faktiki yaşadığı ünvan göstərilməlidir, ayrıca yazışma üçün ünvan da göstərilə bilər)
Email ünvanı: ________________________________________

**Cavabdeh**: _________(Soyadı, adı, atasının adı)___________________
**Ünvan:** (qeydiyyat ünvanı və faktiki yaşadığı ünvan göstərilməlidir, ayrıca yazışma üçün ünvan da göstərilə bilər)
Email ünvanı: ________________________________________

# İDDİA ƏRİZƏSİ

***(valideynlik hüququndan məhrumetmə tələbinə dair)***

Cavabdeh ________________ ilə mən ________________-cü ildə ________________Qeydiyyat Şöbəsində rəsmi dövlət qeydiyyatından keçməklə ailə həyatı qurmuşam. Nikahdan ________________-cü il təvəllüdlü ________________ anadan olub.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin ___________________-cı il tarixli qətnaməsi ilə cavabdehlə aramızdakı nikah pozulub. Qətnamə hüquqi qüvvəyə minib. Həmin qətnaməyə əsasən, birgə nikahdan olan uşaq mənimlə qalıb və onun saxlanması üçün cavabdehdən _____________məbləğdə alimentin tutulması qət edilib.

Lakin cavabdeh məhkəmənin təyin etdiyi alimenti ödəmir və ümumiyyətlə, ödəməkdən imtina edir. Uşağın atası olmasına baxmayaraq, cavabdeh, uşağın nə saxlanması, nə tərbiyəsi, nə də inkişafı ilə maraqlanır, mənə isə heç bir maddi-mənəvi köməklik göstərmir və əvvəllər də göstərməyib. Uşağın bütün xərclərini və ehtiyaclarını mən qarşılayıram, cavabdeh isə uşaqla maraqlanmır, öz valideynlik vəzifələrini yerinə yetirmir və uşağın böyüməsində iştirak etməkdən imtina edir. Nəticə etibarilə, cavabdeh uşaqla olan bütün bağlantılarını itirib və onların bərpasından imtina edir. Bütün bunlar cavabdehin valideynlik hüququnun ləğv olunması üçün əsasdır. Əlavə olaraq onu da qeyd edim ki, cavabdeh valideynlik hüququndan məhrum olunmağına da razıdır. Bununla bağlı cavabdehlə şifahi razılaşmamız da var; belə ki, cavabdeh valideynlik hüququndan məhrum olunmasına razılıq verəcəyi təqdirdə mən alimentdən imtina edəcəyəm.

Cavabdehin övladına qarşı atalıq vəzifələrini yerinə yetirməməsi, valideyn kimi öz hüquq və vəzifələrinin mahiyyətini başa düşməməsi, onları icra etməkdən imtina etməsi valideynlik hüququnın məhrum edilməsi üçün əsaslardandır.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 64-cü maddəsinə əsasən, valideyn öz valideynlik vəzifəsini yerinə yetirmədikdə və alimenti qəsdən ödəmədikdə valideynlik hüququndan məhrum edilə bilər.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 64-65-66-cı və Azərbaycan Respublikası MPM-in 296-300-305.1-ci maddələrinə əsasən, məhkəmədən

**xahiş edirəm:**

Cavabdeh _____________________ oğlunun valideynlik hüququndan məhrum edilməsinə dair qətnamə çıxarasınız.

**Qoşma:**

1. İddia ərizəsi;
2. Nikahın pozulmasına dair şəhadətnamənin notarial təsdiq edilmiş surəti;
3. Uşağa məxsus doğum haqqında şəhadətnamənin notarial təsdiq edilmiş surəti;
4. Yaşayış yerindən arayış (2 nüsxə);
5. Məhkəmə qətnaməsi;
6. Dövlət rüsumunun ödənilməsinə dair qəbz.

**İmza: ___________________ İddiaçı / ________________________**
**Tarix:**___________________